*MƏKTƏBƏQƏDƏR TƏHSİL*
*ДОШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ*
*PRESCHOOL EDUCATION*

*UOT 373.2.*

***Yeganə Xanoğlan qızı Məmmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının baş müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0001-8319-8849*
*E-mail: yeganememmedova.doc@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(6).122-126*

# MƏKTƏBƏQƏDƏR DÖVRDƏ NİTQ BACARIQLARININ FORMALAŞDIRILMASINDA BƏDİİ ƏSƏRLƏRİN OXUNMASININ ƏHƏMİYYƏTİ

***Yegane Khanoghlan Mammadova***
*head teacher of the department of pedagogy of preschool education at*
*Azerbaijan State Pedagogical University,*
*doctor of pilosophy in pedagogy*

# THE IMPORTANCE OF READING WORKS OF FICTION IN THE FORMATION OF SPEECH SKILLS IN PRESCHOOL AGE

***Егяна Ханоглан гызы Мамедова***
*старший преподаватель кафедры Педагогики дошкольного образования,*
*Азербайджанского Государственного Педагогического Университета*
*доктор философии по педагогике*

# ВАЖНОСТЬ ЧТЕНИЯ ХУДОЖЕСТВЕННОЙ ЛИТЕРАТУРЫ ПРИ ФОРМИРОВАНИИ РЕЧЕВЫХ НАВЫКОВ В ДОШКОЛЬНЫЙ ПЕРИОД

**Xülasə.** Uşaqlıq dövrü insan şəxsiyyətinin formalaşdığı ən həssas mərhələlərdən biridir. Bu dövrdə uşaqlarda əsas psixoloji və nitq bacarıqlarının təməli qoyulur. Nitq isə uşağın cəmiyyətlə ünsiyyət qurmasında, fikirlərini ifadə etməsində, ətraf mühiti dərk etməsində əsas vasitədir. Bədii əsərlərin məktəbəqədər yaş dövründə uşaqlara təqdim olunması onların danışıq qabiliyyətinin inkişafına, söz ehtiyatının zənginləşməsinə və emosional dünyasının formalaşmasına mühüm təsir göstərir. Bədii əsərlərdən istifadə zamanı əsas diqqət uşaqların anlama və qavrama fəaliyyətinə yönəlməlidir. Məşğələ zamanı uşaqların bilik və bacarıqlar əldə etməsi, ilk növbədə, tərbiyəçi–müəllimin peşəkar rəhbərliyindən asılıdır. Müəllim bu prosesdə müxtəlif üsul və vasitələrdən səmərəli istifadə etməyi bacarmalıdır. O, uşaqların bilikləri sadəcə mexaniki şəkildə deyil, şüurlu və dərk olunaraq mənimsəmələrinə kömək etməlidir. Tərbiyəçi–müəllim eyni zamanda uşaqlarda nitq bacarığının, düşüncə tərzinin və estetik hisslərin formalaşmasına xüsusi diqqət yetirməlidir. Uşaqların danışıq qabiliyyəti müəllimin istiqamətləndirilməsi ilə ardıcıl və məqsədyönlü şəkildə inkişaf etdirilməlidir.
***Açar sözlər:*** *uşaqlıq dövrü, şəxsiyyətinin formalaşması, nitq bacarıqları, bədii əsərlər, üsul və vasitələr*

**Abstract.** Childhood is one of the most sensitive stages in the formation of human personality. During this period, the foundation of basic psychological and speech skills is laid in children. Speech is the main tool for a child to communicate with society, express their thoughts, and understand the environment. Introducing works of art to children in preschool age has a significant impact on the development of their speaking skills, the enrichment of their vocabulary, and the formation of their emotional world. When using works of art, the main attention should be paid to children's understanding and perception activities. The acquisition of knowledge and skills by children during the lesson depends, first of all, on the professional

guidance of the educator-teacher. The teacher must be able to effectively use various methods and tools in this process. He must help children to acquire knowledge not just mechanically, but consciously and with understanding. The educator-teacher must also pay special attention to the formation of speech skills, thinking and aesthetic feelings in children. Children's speaking skills should be developed consistently and purposefully under the guidance of the teacher.

***Key words:*** *childhood, personality formation, speech skills, artistic works, methods and means*

**Аннотация.** Период детства – один из самых сенситивных этапов формирования личности человека. В этот период у детей закладывается фундамент основных психологических и речевых навыков. Речь – основное средство общения ребёнка с обществом, выражения своих мыслей и познания окружающего мира. Знакомство детей с произведениями искусства в дошкольном возрасте оказывает существенное влияние на развитие речевых навыков, обогащение словарного запаса и формирование эмоционального мира. При использовании произведений искусства основное внимание следует уделять развитию у детей понимания и восприятия. Усвоение детьми знаний и умений на уроке зависит, прежде всего, от профессионального руководства педагога-воспитателя. Педагог-воспитатель должен уметь эффективно использовать в этом процессе различные методы и средства. Он должен помогать детям усваивать знания не механически, а осознанно и с пониманием. Педагог-воспитатель, также должен уделять особое внимание формированию речевых навыков, мышления и эстетических чувств у детей. Развитие речевых навыков детей должно осуществляться последовательно и целенаправленно под руководством педагога-воспитателя.

***Ключевые слова:*** *период детства, формирование личности, речевые навыки, художественные произведения, методы и средства*

Uşaqlıq dövrü insan şəxsiyyətinin formalaşdığı ən həssas mərhələlərdən biridir. Bu dövrdə uşaqlarda əsas psixoloji və nitq bacarıqlarının təməli qoyulur. Nitq isə uşağın cəmiyyətlə ünsiyyət qurmasında, fikirlərini ifadə etməsində, ətraf mühiti dərk etməsində əsas vasitədir. Bədii əsərlərin məktəbəqədər yaş dövründə uşaqlara təqdim olunması onların danışıq qabiliyyətinin inkişafına, söz ehtiyatının zənginləşməsinə və emosional dünyasının formalaşmasına mühüm təsir göstərir. Bu dövrdə uşaqlarda ana dilinə qarşı sevgi və hörmət hissi formalaşır. Onlar ana dillərinin hansı dil olduğunu anlayır və bu dilin zəngin imkanlarından yararlanmağa başlayırlar. Uşaqların nitqi təkmilləşdikcə, onlar fikirlərini daha ifadəli və təsirli şəkildə ifadə edə bilirlər. Bu bacarıqlar gələcək həyatlarında onlara böyük üstünlüklər verir. Cəmiyyətdə layiqli mövqe tutmaları üçün səlis və düzgün danışıq bacarığı olduqca vacibdir. Erkən yaşlardan düzgün nitq vərdişi qazanan uşaqlar məktəb həyatına daha rahat uyğunlaşır, lüğət ehtiyatlarından bacarıqla istifadə edir və söz ehtiyatlarını artırırlar. Uşaqlara ana dilində rabitəli və düzgün danışma bacarığı aşılanmasının həm nəzəri, həm də praktik baxımdan böyük əhəmiyyəti var. Erkən yaş dövründə uşaqlar hələ dili tam mənimsəməmiş olurlar və onların söz ehtiyatı məhdud olur. Bəzən isə bəzi sözlərin düzgün tələffüzündə çətinlik çəkirlər. Bu çatışmazlıqları bədii əsərlər vasitəsilə aradan qaldırmaq mümkündür (1).

Məktəbəqədər təhsil müəssisələrində nitqin inkişaf etdirilməsi istiqamətində geniş istifadə olunan və eyni zamanda təsirli hesab edilən metodlardan biri uşaqların bədii ədəbiyyatla tanış edilməsidir. Bədii ədəbiyyat yalnız dil bacarıqlarını deyil, eyni zamanda uşaqlarda tərbiyəvi dəyərləri də formalaşdırır. Ədəbi mətnlər vasitəsilə uşaqlar insani keyfiyyətləri öyrənir və müxtəlif obrazlarla tanış olurlar. Əsərlərdəki qəhrəmanlar onların marağını cəlb edir və yaddaşlarında iz buraxır. Mənfi qəhrəmanlar yalan danışmaq, paxıllıq etmək, oğurluq, xainlik və ikiüzlülük kimi mənfi xüsusiyyətlərlə təqdim olunur və bu davranışlar pislənir. Uşaqlarda bu mövzularda müəyyən anlayış və düşüncələr formalaşır. Müsbət obrazlar isə təmiz ürəklilik, mərhəmət, vicdan, xeyirxahlıq və ədalət kimi müsbət insani keyfiyyətləri əks etdirir. Ümumilikdə desək, bədii ədəbiyyat uşaqların şəxsiyyətinə və cəmiyyətə uyğun, mənəvi dəyərlərə sahib bir vətəndaş kimi yetişməsinə zəmin yaradır. Gələcəkdə onların əxlaqlı və nümunəvi bir insan kimi formalaşması üçün əsaslı bünövrə qoyur. Uşaqların tərbiyəsində ədəbi-bədii əsərlərin rolu, onların həm tərbiyəedici, həm də öyrədici funksiyası ilə müəyyən olunur. Belə əsərlər uşaqların intellektual, mənəvi və estetik inkişafına güclü təsir göstərir. Söz sənətinin əhəmiy-

yəti ondadır ki, o, gerçəkliyi bədii obrazlar vasitəsilə əks etdirir, real hadisələri ümumiləşdirir və daha tipik halları önə çıxarır. Uşaq hər hansı bir əsəri dinlədikdə, öz həyatında baş vermiş hadisələr və ya tanış mövzularla bağlı məsələləri daha dərindən qavrayır. Ətrafdakı əşyalar, hadisələr və onların arasındakı əlaqələr onlar üçün daha anlaşılan və mənalı olur. Eyni zamanda, bu proses uşaqlara yeni bilik və məlumatlar qazandırır (2).

Böyük yaş qrupunda olan uşaqlar, kiçik və orta yaş qruplarına nisbətən nitqin inkişafına daha çox nail olurlar. Bu yaş mərhələsində onlara əsər oxunduqda, artıq məzmunla forma arasındakı əlaqəni qavramaq qabiliyyətinə malik olurlar. Hətta bədii mətnlərdə yer alan obrazlı söz və ifadələri də tanıyıb müəyyənləşdirə bilirlər. Nağıl və hekayələrə qulaq asdıqları zaman uşaqlarda poetik eşitmə bacarığı formalaşır. Bu bacarıq sayəsində onlar epik və lirik janrlar arasındakı fərqi anlamağa başlayır və bu iki növ əsəri bir-birindən ayırd etməyi bacarırlar. Böyük yaş qrupunda uşaqların danışıq qabiliyyətlərini inkişaf etdirmək üçün onlara müxtəlif şeirlər təqdim olunur. Şeirləri dinləyərkən artıq uşaqlar qafiyə və ritm kimi poetik elementləri fərqləndirməyi bacarır, bunlara qarşı duyarlılıq nümayiş etdirirlər. Bu dövrdə lüğət üzərində aparılan işin əsas məqsədi uşaqların söz ehtiyatını genişləndirmək, onu aktivləşdirmək, dəqiqləşdirmək və nitqin aydınlığına nail olmaqdır. Bu istiqamətdə görülən fəaliyyətlər zamanı xüsusilə folklor nümunələrinin istifadəsi mühüm rol oynayır. Məsələn, hər gün bir yeni folklor nümunəsinin öyrədilməsi uşağın danışıq lüğətinə yeni bir sözün daxil olmasına səbəb olur. Yeni sözlərin lüğətə daxil olması uşaqların ətrafdakı insanlarla daha rahat və səlis ünsiyyət qurmasına şərait yaradır. Onlar sadəcə danışıqda istifadə etdikləri sözlərlə kifayətlənmirlər, eyni zamanda mənasını bildikləri, amma nitqdə işlətmədikləri sözlər də olur. Bu cür sözlər qeyri-fəal lüğətə aiddir. Uşaqlar həmin sözləri unuda bilərlər, lakin başqa biri danışarkən o sözlərin mənasını anlayırlar. Bəzən isə uşaq bir sözü eşidib yadda saxlayır, amma onun mənasını tam anlamır. Bu halları tərbiyəçi-müəllim mütləq nəzərə almalı və düzgün yanaşma tətbiq etməlidir. Xüsusilə “şir ürəkli”, “aydan arı, sudan duru”, “itibuynuz”, “şəkərə qatım səni” kimi məcazi ifadələr uşaqların nitqində yavaş-yavaş yer almağa başlayır. Folklor nümunələrinin tətbiqi uşaqlara eyni fikri müxtəlif yollarla ifadə etməyi öyrədir. Onlar bir anlayışı birbaşa adla deyil, onun xarakterik xüsusiyyətlərini ifadə etməklə də çatdırmağı bacarırlar (3).

Lüğət ehtiyatını artırmaq məqsədilə tərbiyəçi-müəllim uşaqlara həm tanış olan, həm də əvvəllər eşitmədikləri sözləri ehtiva edən nümunələri öyrətməlidir. Lüğət üzərində aparılan işin əsas məqsədi budur ki, uşaq sözün mənasını düzgün başa düşsün və həmin sözün aid olduğu əşya və ya hadisəni tanıya bilsin. Yeni öyrənilən sözlərin aktiv şəkildə istifadə olunmasına yönəlmiş fəaliyyətlər də olduqca vacibdir. Bu yolla qeyri-fəal lüğət tədricən fəal lüğətə çevrilir. Söz ehtiyatı zəif olan uşaqlar öz fikirlərini sərbəst şəkildə ifadə etməkdə çətinlik çəkirlər. Düzgün və yerində söz tapmaq onlar üçün asan olmur. Bu səbəbdən tərbiyəçi–müəllim uşaqlarla planlı və davamlı şəkildə işləməli, onların lüğət bazasını sistemli formada genişləndirməlidir. Məktəbəqədər təhsil müəssisələrində uşaqların lüğət ehtiyatının artırılmasında bədii əsərlərin oxunmasının qarşısında bir sıra əsas vəzifələr dayanır:

1. Bədii əsərlərin mənimsənilməsi zamanı onların düzgün başa düşülməsi və uşaqlarda düşünmə bacarıqlarının inkişaf etdirilməsi;
2. Müxtəlif fəaliyyətlər zamanı təkrarların tətbiqi ilə söz ehtiyatını zənginləşdirmək vərdişlərinin formalaşdırılması və möhkəmləndirilməsi;
3. Uşaqlarda ətraf aləmə qarşı düzgün münasibətin tərbiyə olunması;
4. Məşğələlərdə və digər fəaliyyət növlərində əldə olunan biliklərin müstəqil şəkildə tətbiq edilməsinin təmin olunması (4).

Şifahi xalq ədəbiyyatının müxtəlif nümunələri rabitəli nitqin inkişafı məqsədilə səmərəli şəkildə istifadə olunur. Tanınmış pedaqoq V.A. Suxomlinski folklorun müxtəlif nümunələrinə, xüsusilə nağıllara olan marağın psixoloji əsaslarını izah edərək qeyd edir: “Uşaqlar nağılları niyə bu qədər həvəslə dinləyirlər? Nə üçün nağıl, danışıq və təfəkkürü digər vasitələrdən daha güclü inkişaf etdirir? Çünki nağıllarda təqdim olunan obrazlar güclü emosional təsirə malikdir. Nağılın dili uşağın şüuruna dərindən nüfuz edir” (5). Nağılların uşaqların rabitəli danışıq bacarığının formalaşmasında rolu danılmazdır. Xalq arasında nəsildən-nəslə ötürülən bu nağıllar nitqin inkişafında mühüm yer tutur. Nağılların quruluşu və məzmunu rabitəli nitqin inkişafına xidmət edir. Onların dili sadə, axıcı və uşaqlar

üçün asanlıqla başa düşüləndir. Nağıllar xalq arasında ən çox sevilən ədəbi janrlardandır. Sehirli, qəhrəmanlıq, məişət və heyvanlar haqqında olan nağıllar uşaqlar üçün maraqlı və cəlbedici olur. Nağılların oxunması uşaqlarda sevinc və maraq doğurur. Bu janr çox qədim zamanlardan, yazının olmadığı dövrlərdən bəri mövcuddur. Uşaqlar nağılları diqqətlə dinləyir, həyəcan keçirir və məzmununu tez yadda saxlayırlar. Nağıl əsasında təşkil olunan oyunlar, yadda qalan epitet və ifadələrin danışıqda tətbiqi onların rabitəli nitq bacarıqlarını inkişaf etdirməyə kömək edir.

Bədii əsərlərdən istifadə zamanı əsas diqqət uşaqların anlama və qavrama fəaliyyətinə yönəlməlidir. Məşğələ zamanı uşaqların bilik və bacarıqlar əldə etməsi, ilk növbədə, tərbiyəçi–müəllimin peşəkar rəhbərliyindən asılıdır. Müəllim bu prosesdə müxtəlif üsul və vasitələrdən səmərəli istifadə etməyi bacarmalıdır. O, uşaqların bilikləri sadəcə mexaniki şəkildə deyil, şüurlu və dərk olunaraq mənimsəmələrinə kömək etməlidir. Tərbiyəçi–müəllim eyni zamanda uşaqlarda nitq bacarığının, düşüncə tərzinin və estetik hisslərin formalaşmasına xüsusi diqqət yetirməlidir. Uşaqların danışıq qabiliyyəti müəllimin istiqamətləndirilməsi ilə ardıcıl və məqsədyönlü şəkildə inkişaf etdirilməlidir. Uşaq bağçalarında çalışan müəllimlər bu məsuliyyətli vəzifəni yerinə yetirərkən folklor nümunələrinin – nağıl, tapmaca, layla və s. – oxunması və danışılmasından geniş istifadə edirlər. Bu nümunələrin məzmunu və dili, onların mənasının izah edilməsi uşaqların söz ehtiyatına, obrazlı düşüncə tərzinə və estetik zövqünə birbaşa təsir göstərir (6).

Uşaqlarda kitab oxumağa maraq yaratmaq məktəbəqədər dövrdə üzərində xüsusi dayanılmalı məsələlərdən biridir. Kiçik yaşlı uşaqların kitabla ilk tanışlığı bəzən maraqlı olur – bəzən kitabı tərs tutaraq "oxumağa" başlayırlar. Bu cür davranışlar gülüşlə qarşılanmamalı, əksinə, onların marağı dəstəklənməli və diqqətlə dinlənilməlidir. Uşaqlara şəkilli kitablarla işləməyi öyrətmək, illüstrasiyalardan məna çıxarmağı bacarmaq vacib bacarıqlardandır. Eyni zamanda, kitabdan istifadə qaydaları da onlara aşılanmalıdır. Kitabın səliqəli saxlanması, səhifələrin cırılmaması, cızılmaması və diqqətlə vərəqlənməsi kimi davranışlar uşaqlara müntəzəm olaraq öyrədilməlidir. Bununla yanaşı, uşaqlara düzgün oturuş və oxu zamanı gözlə kitab arasında saxlanmalı məsafə haqqında da məlumat verilməlidir. Gözlə kitab arasındakı optimal məsafə təxminən 25-30 sm olmalıdır (3). Bu, həm görmə sağlamlığı, həm də düzgün oxu vərdişlərinin formalaşması baxımından önəmlidir. Beləliklə, bədii əsərlərin oxunması yalnız intellektual deyil, həm də estetik və gigiyenik baxımdan uşağın şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Bütün bu məqsədlərə nail olmaq üçün uşaqlara təqdim edilən bədii əsərlərin onların yaş xüsusiyyətlərinə və anlama səviyyələrinə uyğunluğu xüsusi əhəmiyyət daşıyır. Tərbiyəçi-müəllim əsər seçərkən onun mövzusunu, məzmununu, həcmini, dil üslubunu və bədii ifadə vasitələrini diqqətlə nəzərə almalıdır. Əsərin uşağın dünyagörüşünə uyğun olması, emosional və mənəvi tərbiyəsinə müsbət təsir göstərməsi mühüm şərtlərdəndir. Əlbəttə, bu cür seçimlər müəllimdən peşəkar yanaşma və pedaqoji bacarıq tələb edir. Eyni zamanda, uşaqların psixoloji xüsusiyyətləri və fərdi inkişaf səviyyələri də nəzərə alınmalıdır. Seçilən əsərlər uşaqlarda müsbət insani keyfiyyətlər, xeyirxahlıq və yüksək mənəviyyat formalaşdırmalıdır. Məktəbəqədər yaşlı uşaqlar üçün təqdim olunan ədəbi materiallar sadə, aydın və anlaşıqlı olmalı, əsasən şifahi xalq ədəbiyyatı nümunələrinə söykənməlidir. Nağıllar, tapmacalar, bayatılar bu yaş dövrü üçün əlverişli vasitələrdir. Orta və böyük yaş qruplarında isə mərhələli şəkildə daha ciddi ictimai-mənəvi mövzulara toxunmaq, onların düşüncə dairəsini genişləndirmək tövsiyə olunur.

**Problemin aktuallığı.** Məktəbəqədər yaş dövründə uşaqlarda nitq bacarıqlarının inkişafında bədii ədəbiyyat nümunələrinin oxunması xüsusi rol oynayır və olduqca əhəmiyyətlidir. İnsan həyatının ən dəyərli mərhələsi hesab olunan bu dövrdən düzgün və məqsədyönlü istifadə edilmədikdə, uşaqlarda formalaşan yanlış təsəvvürlərin sonradan aradan qaldırılması böyük çətinliklərə səbəb olur. Bu cür halların qarşısını almaq üçün bədii əsərlərin uşaqların tərbiyəsinə təsiri müxtəlif aspektlərdən araşdırılsa da, hələlik bu sahənin məqsəd və vəzifələri tam şəkildə müəyyən olunmamış, ümumi yanaşmalarla kifayətlənilmişdir. Hazırkı tədqiqat işimiz məhz bu problemin dərinliklərinə varmaq və onun həlli yollarını araşdırmaq məqsədilə aparılmışdır.

**Problemin elmi yeniliyi.** Bu məqalədə uşaq bağçalarında bədii ədəbiyyatdan istifadə məsələsi ilk dəfə tədqiq edilmiş, onun əsas məqsədləri, qarşıya qoyulan vəzifələr və əhəmiyyətli həll yolları ortaya qoyulmuşdur.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə təqdim olunan təklif və nəticələr, müasir dövrdə uşaq bağçalarında bədii əsərlərin oxunmasının səmərəli şəkildə təşkilinə və bu prosesin uşaqların inkişafında nəzərə alınmasına şərait yaradır. Bu bilgilər əsasında həm tərbiyəçilər, həm də valideynlər uşaqların təlim-tərbiyə və inkişaf prosesini daha uğurla planlaşdıra və həyata keçirə bilərlər.

## Ədəbiyyat

1. Məmmədova, Y.X. Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsinin məzmunu və yolları / Y.X. Məmmədova. –Bakı: ADPU, –2019. –256 s.
2. Əliyeva, S. A. Xalq pedaqogikasında tərbiyə məsələləri / S.A. Əliyeva. –Bakı: ADPU, – 2016. –172 s.
3. Kərimov, Y.Ş. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası / Y.Ş. Kərimov. –Bakı: 2009. – 319 s.
4. Əsgərova, R.Ə. Məktəbəqədər yaşlı uşaqlarda rabitəli nitqin inkişafı / R.Ə. Əsgərova. –Bakı: Hərbi, – 2006. –158 s.
5. Həşimov, Ə.Ş., Sadıqov, F.B. Azərbaycan xalq pedaqogikası / Ə.Ş. Həşimov, F.B. Sadıqov. –Bakı: Patronat, –1993. –276 s.
6. Əliyev, İ. Azərbaycan etnopedaqogikası / İ. Əliyev. –Bakı: Elm və Təhsil, –2009. –223 s.
7. Cəfərova, L.K. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramına dair müntəxəbat / L.K. Cəfərova. –Bakı: Çaşıoğlu, –2009. –320 s.
8. Həkimov, M.İ. Xalqımızın deyimləri və duyumları / M.İ. Həkimov. –Bakı: Maarif, –1986. –378 s.
9. Qafarlı, R.O. Uşaq folklorunun janr sistemi və poetikası / R.O. Qafarlı. –Bakı: Elm və Təhsil, –2013. – 539 s.
10. Məktəbəqədər yaşlı uşaqlar üçün müntəxəbat / Tərt.ed. Ş. Abdullayeva, X. Məmmədova, A. Məmmədova. –Bakı: Təhsil, –2000. –276 s.
11. Nəbiyev, A. Nəğmələr, inanclar, alqışlar / –Bakı: Yazıçı, –1986. –211 s.

**Redaksiyaya daxil olub:** 08.10.2025